# Naxçıvanla tanışlıq

Türkiyə Respublikası Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Ciritin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində qədim diyarın tarix-memarlıq abidələri, muzeyləri, görməli yerləri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, türkiyəli qonaqlar əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Qonaqlar muzeydə ümummilli liderin həyatının müxtəlif dövrlərini əks etdirən stendlərə, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid rəsmi sənəd və materiallara, məktublara, Azərbaycanın müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətlərinə, ulu öndərə məxsus şəxsi əşyalara baxıblar.

Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq zamanı qonaqlara məlumat verilib ki, 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılan bu mərkəz təbii müalicə ocağıdır. Buradakı duz şaxtalarında bronxial-astma və tənəffüs yollarının qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunurlar. Xəstələrə həkimlər tərəfindən müxtəlif müalicə kursları tətbiq edilir.

Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında yerləşən "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi də qonaqların böyük marağına səbəb olub.

Naxçıvan Biznes Mərkəzində nümayəndə heyətinə muxtar respublikanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlər barədə məlumat verilib. Bildirilib ki, mərkəzdə yerli məhsullar sərgilənir. Burada hazırda 86 müəssisənin 300-dən çox növdə və 1000-ə yaxın çeşiddə məhsulu nümayiş olunur. Sahibkarlığa göstərilən dövlət qayğısı sayəsində muxtar respublikada ümumi daxili məhsul istehsalında özəl sektorun payı 87 faizi ötüb.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində türkiyəli qonaqlara Naxçıvan şəhərinin tarixi, arxeoloji abidələri haqqında ətraflı məlumat verilib. Onlar, həmçinin "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində də olublar.

Türkiyə Respublikası Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Ciritin rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.